**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**
**Q Ə R A R**
**№ 11**

**Bakı şəhəri** **22 oktyabr 2024-cü il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası Nəzrin Fərman qızı Məmmədzadənin Dövlət Statistika Komitəsi aparatında Energetika və ətraf mühit statistikası şöbəsinin Energetika statistikası sektorunun baş məsləhətçi vəzifəsinin tutulması üçün 2024-cü il sentyabr ayının 17-də keçirilən daxili müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Məmmədzadə Nəzrin Fərman qızı Dövlət Statistika Komitəsi aparatında Energetika və ətraf mühit statistikası şöbəsinin Energetika statistikası sektorunun baş məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2024-cü il avqust ayının 07-də elan edilmiş daxili müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2024-cü il sentyabr ayının 17-də Dövlət Statistika Komitəsinin nümayəndəsi Energetika və ətraf mühit statistikası şöbəsinin müdiri Emil Məmmədov, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Zaur Hüseynzadə və müstəqil ekspert Gülşən Orucovadan ibarət komissiya tərəfindən keçirilmişdir. Məmmədzadə Nəzrin Fərman qızına müsahibə komissiyasının üzvlərindən E.Məmmədov 16 bal, Z.Hüseynzadə 15 bal, G.Orucova 15 bal vermiş və nəticədə iştirakçı 15,3 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 18.09.2024-cü il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edildiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Şikayət təmin edilsin, Məmmədzadə Nəzrin Fərman qızının Dövlət Statistika Komitəsi aparatında Energetika və ətraf mühit statistikası şöbəsinin Energetika statistikası sektorunun baş məsləhətçi vəzifəsinin tutulması üçün 2024-cü il sentyabrın 17-də keçirilən daxili müsahibənin nəticəsi ləğv edilsin, namizəd vəzifəyə uyğun hesab edilsin.
2. Apellyasiya Şurasının Katibliyi Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətini üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və şikayətçiyə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN

Əsli ilə düzdür